НАРОДНА БИБЛИОТЕКА СРБИЈЕ
7101 Бр. 1326/1
20. 9. 2013. год.
БЕОГРАД, Скерлићева 1

# Azərbaycan Milli Kitabxanası ilə Serbiya Milli Kitabxanası arasında əməkdaşlıq haqqında Memorandum

Azərbaycan Milli Kitabxanası ilə Serbiya Milli Kitabxanası (sonradan "Tərəflər" adlandırılacaq):

Kitabxanalar arasında əməkdaşlığı inkişaf etdirmək, həmçinin elm və mədəniyyət sahələrində, informasiya mübadiləsi sahəsində əməkdaşlıq üçün şərait yaratmağı arzulayaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, sənədlərin elektron mübadiləsi və çatdırılması, biblioqrafiya, nadir kitabların bərpa və konservasiyası, kadr hazırlığı sahələrində əməkdaşlıq edəcəklər.

## Maddə 2

Tərəflər kitabxana elminin, kitabxana-informasiya sahəsinin inkişaf perspektivləri, nailiyyətləri barədə qarşılıqlı təcrübə və bilik əldə etmək məqsədilə aşağıdakı sahələr üzrə əlaqələri inkişaf etdirəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə;
- məlumat bazalarının idarə edilməsi;
- kitab və kitab nəşri sahəsində elmi tədqiqatlar;
- nadir kitabların mühafizə, bərpa və konservasiyası texnologiyaları:
- kitabxana arxivlərinin keyfiyyətli təkmilləşdirilməsi məqsədilə beynəlxalq kitab mübadiləsinin inkişafı;
- kitab sərgilərinin təşkili;
- kitabxana elminin bütün sahələrində mütəxəssislərin təcrübə mübadiləsi aparılması, treninglərin, vörkşopların, seminarlar və elmi konfransların keçirilməsi.

**Maddə 3**

Tərəflər digər tərəfin kitabxanaçısını maksimum 15 günlük müddət olmaq şərtilə qəbul etməyə razıdır.

Yerləşdirmə xərcləri (mehmanxana və gündəlik xərclər) qəbul edən ölkə tərəfindən, səfər (yol) xərcləri isə göndərən ölkə tərəfindən ödəniləcək. Səfər edəcək kitabxanaçıların sayı hər il qarşılıqlı razılaşma ilə təyin olunacaq.

**Maddə 4**

Əməkdaşlıq haqqında Memorandum 3 il müddətinə etibarlı olacaq və bu Memorandumun bitməsinə 6 ay qalmış digər Tərəfin Memorandumun bitməsi barədə yazılı məlumatı olmazsa, Əməkdaşlıq haqqında Memorandum növbəti 3 il müddətinə uzadılacaqdır.

**Maddə 5**

Əməkdaşlıq haqqında Memoranduma əlavə və dəyişikliklərin edilməsi zərurəti yarandığı halda Tərəflər bir-birini qabaqcadan məlumatlandırmalıdır və həmin əlavə və dəyişikliklər birgə razılıq əsasında həll olunur. Tərəflərdən biri Əməkdaşlıq haqqında Memorandumun qüvvədən düşməsi haqqında digər Tərəfə 3 ay əvvəl yazılı bildiriş göndərərək onun qüvvədən düşdüyünü bəyan edə bilər.

**Maddə 6**

Əməkdaşlıq haqqında Memorandum Bakı və Belqrad şəhərlərində 2013-cü ilin sentyabr ayında Azərbaycan, serb və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər səlahiyyətlidir. Hazırki Memorandumun tərcüməsi ilə problem olarsa, ingilis variantına üstünlük veriləcək.

**Azərbaycan Milli Kitabxanasının direktoru**

**Kərim Tahirov**

**Serbiya Milli Kitabxanasının direktor vəzifəsini icra edən**

**Dejan Ristic**